KAMRAN İMANOV

# MÜƏLLİFLİK HÜQUQU VƏ DİGƏR ƏQLİ MÜLKİYYƏT HÜQUQLARI MÜASİR MƏRHƏLƏDƏ

Bakı – 2018

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları müasir mərhələdə. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı ilə birgə 22 aprel 2011-ci il tarixində keçirilən “Müəlliflik hüququ, mədəni hüquqlar və insan haqları: erməni riyakarlığı” mövzusunda konfransda etdiyi çıxış sözü və “Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları müasir mərhələdə” adlı prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2013, 2014, 2015, 2016, 2017, 2018**
**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat

Çıxış sözü ..................................................... 5

I. Müəlliflik hüququ bu gün ............................... 16

II. Qeyri-maddi mədəni irs, onun qorunub saxlanması və hüquqi qorunması ................. 28

## Çıxış sözü

Hörmətli dostlar, xanımlar və cənablar!

23 aprel UNESCO tərəfindən elan olunmuş Ümumdünya Kitab və Müəlliflik Hüququ günüdür, 26 aprel isə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən qeyd olunan Beynəlxalq Əqli Mülkiyyət Günüdür.

BMT-nın iki mötəbər təşkilatının Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqlarına həsr olunmuş mərasimlərinin Azərbaycanda qeyd olunması artıq bir ənənəyə çevrilib və hər il silsilə tədbirlərlə müşahidə olunur. Bu tədbirlərin məqsədi əqli mülkiyyətin və xüsusilə müəlliflik hüququnun mədəni irsin yaranmasındakı rolunu bir dəfə də açıqlamaq, davamlı iqtisadi inkişafdakı və informasiya cəmiyyətinin formalaşmasında əhəmiyyətini diqqətə çatdırmaq, əqli mülkiyyət yaradıcılarına öz hörmət və ehtiramlarımızı bildirmək və mədəni adət-ənənələrimizin qorunub saxlanmasına və xüsusən erməni mənimsəmələrinə qarşı çıxmağının fəallaşmasını cəmiyyətimizin diqqətində saxlamaq.

Xanımlar və cənablar!

Ombudsman Aparatı ilə Müəllif Hüquqları Agentliyinin birgə keçirdikləri simpoziumun mövzusu - «Müəlliflik hüququ və mədəni hüquqlar: erməni riyakarlığı» heç də təsadüfi deyil. Bu mövzu ən vacib fəaliyyət istiqamətlərimizdən biridir. Son onillikdə ictimai diqqəti cəlb edən və dəyişmiş iqlimin idarə edilməsini dövlətlərin mərkəzi fokusuna çevirən Əqli Mülkiyyət fenomenidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyi və dəstəyi nəticəsində ƏMH sahəsində yeni çağırışlara aid müvafiq islahatlar davam edir, MDB məkanında lider mövqeyindən çıxış edərək, idarəçilik funksiyalarının təkmilləşdirilməsi və kadrların peşəkarlıq səviyyəsinin artması ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilir.

Prioritet istiqamətlər çərçivəsində:

- əqli mülkiyyət mədəniyyətinin inkişaf etdirilməsi və hüquqların təminatı, piratçılığa və xüsusən erməni plagiatçılığına qarşı mübarizənin gücləndirilməsi;

- biliklərə əsaslanan iqtisadiyyatın, kreativ industriyanın dəstəklənməsi və əqli mülkiyyətə əsaslanan sənayenin ümumdaxili məhsulda payının iqtisadi təhlili, həmçinin əqli mülkiyyətə əsaslanan qeyri-maddi aktivlərin mikroiqtisadi səviyyədə dəyərləndirilməsi;

- informasiya texnologiyaları – əqli mülkiyyət (IT-IP) əlaqəsinin gücləndirilməsi və getdikcə artan elektron ticarətdəki əqli mülkiyyət rəqəmli hüquqların həyata keçirilməsi və təmin edilməsidir.

Hörmətli dostlar!

Əqli mülkiyyətin başında duran Müəlliflik hüququ bəşəriyyətin böyük dəyərlərindən biridir. Bu hüquq insanların universal, təbii resurslarından irəli gələn yaradıcılıq və yenilikçiliyi dəstəkləyir, əqli fəaliyyətin ən yüksək zirvəsinə zəmin durur.

Bu hüququn yaranma mənbəyi əqli fəaliyyətin fərdin təbiətindən və cəmiyyətə böyük fayda gətirməsinin dövlət tərəfindən dərk edilməsinin nəticəsidir. Burada «hüquq borcu doğmur, borc bu hüququ doğur». Müəllif hüquqlarının bir incə məqamı da ondan ibarətdir ki, yaradıcılığa dəstək verərək, bu hüquq sərbəstliyin, azadlığın nəticələrini qoruyur. Özü də yaradıcılıq prosesinin muxtariyyətinə müdaxilə etmədən, çünki yaradıcılıq məkanında hüquq sərhəd qoymağa qadir deyil.

Bununla yanaşı, hüququn ümumilik prinsipinə əsaslanaraq müəllif hüquqları cəmiyyətin hər bir üzvünə şamil olunur və bununla hər bir insanın bənzərsizliyini, təkrarsızlığını, unikallığını təsdiqləyir.

O da bir həqiqətdir ki, «kiminsə hüququ, digərinin vəzifəsidir» və digərləri qarşısına qoyulan məhdudiyyət çər-

çivələri «cəmiyyət-yaradıcı şəxs» tərəflərinin mənafelərinin tarazlığına gətirən sosial kontrakt kimi çıxış edərək, tərəflərin hər birinə fayda gətirir. Odur ki, müəllif-hüquq qanunvericiliyi «kompromislər məcmusuna» çevrilir.

Dövlət başçısının səyləri nəticəsində Azərbaycanın əqli mülkiyyət sahəsinin zəngin qanunvericilik bazası yaradılıb, «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanuna, müasir rəqəmli mühitlə bağlı əlavələr və dəyişikliklər aparılıb, yaxın ərəfədə «Folklorun hüquqi qorunması haqqında» əlavələr təsdiqlənəcək və yeni «ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun qüvvəyə minəcək.

Azərbaycan dünyanın ilk dövlətləri sırasında ƏM sahəsində Uzunmüddətli Milli Strategiya əsasında «Müəlliflik hüququ və digər ƏMH-ı 2011-2014-cü illər» Dövlət Proqramının qəbul edilməsinə hazırlaşır. Hər iki sənəd ÜƏMT və Avropa Komissiyasının ƏM üzrə mütəxəssislərinin iştirakı ilə müzakirə edilmiş və bəyənilmişdir.

ÜƏMT-nın 2010-cu ilin 16-17 sentyabr tarixlərində keçirilən ƏM üzrə nüfuzlu mütəxəssislərin Qlobal Simpoziumunun plenar iclasında Agentliyin nümayəndəsi ilk dəfə olaraq 190-dək dövləti təmsil edən ƏM məsələləri üzrə 250-dən çox rəhbər nümayəndə qarşısında «Azərbaycanda müəlliflik hüququ: imkanlar və perspektivlər» mövzusunda geniş prezentasiya ilə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda müəlliflik hüququ sahəsində görülən işlər barədə məlumat vermişdir.

Bununla yanaşı, Agentlik nəzdində MDB məkanında ilk olaraq «Əqli mülkiyyət hüquqlarının təminatı Mərkəzi və «On-line» monitorinq, lisenziyalaşdırma və rəqəmli hüquqların idarə edilməsi Xidməti» yaradılır, bunlara aid Agentlikdə biznes-modellər işlənib və TVINNING layihəsi çərçivəsində bu istiqamətdə Avropanın tanınmış mütə-

xəssisləri ilə birgə iş aparılır. Agentlikdə ictimai əsaslarla «hüquq məsləhətxanası» və «Qaynar xətt» fəaliyyətdədir, «Müəllif informasiya-axtarış sistemi», «Qeydiyyat» elektron bazası, rəqəmli «Folklor» kitabxanası yaradılıb.

Milli Antipirat Proqramı yeniləşdirilib və müvafiq dövlət orqanları ilə birgə aparılmış işlər nəticəsində ölkəmizdə piratçılığın səviyyəsi 2005-ci illə müqayisədə kitab nəşri sahəsində 61%-dən 40%-ə, audio-video məhsul bazarında 90%-dən 70%-ə, proqram təminatında 96%-dən 88%-ə düşmüşdür.

Hörmətli dostlar!

Müəlliflik hüququnun mədəni-kulturoloji və informasiya əhəmiyyəti ilə yanaşı, böyük iqtisadi mənası da var. Dəmir və betona əsaslanan iqtisadiyyat hazırda «biliklərə əsaslanan» iqtisadiyyatla əvəz olunur, inkişaf etmiş ölkələrdə iqtisadi artımın 80-90%-i yeni biliklər əsasında təmin edilir, yalnız müəllif hüququna əsaslanan mədəni və ya kreativ sənayenin payı ÜDM-də 5-12%-ə çatır. ÜƏMT-nın məlumatlarına əsasən, 80-ci illərdə biznesin intellektual aktivləri yalnız 20% idisə, 2005-ci ildə bu rəqəm 80-90%-ə qədər artmışdır.

Bu yaxınlarda UNKTAD (BMT-nin Ticarət və İnkişaf Konfransı), PROON (BMT-nin İnkişaf Proqramı), UNESCO, ÜƏMT və Ticarət Mərkəzi ilə birgə 2010-cu ildə hazırlanmış «Kreativ iqtisadiyyat» Hesabatı açıqlanıb. Bəllidir ki, «kreativ iqtisadiyyat» kreativ industriyaya əsaslanır, yəni müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayedir. Bu sıraya kompüter və digər İKT məhsulları, kitablar və digər nəşrlər, yeni media, musiqi, film istehsalatı, tətbiqi incəsənət, dizayn və s. daxildir. Hesabatda göstərildiyi kimi, kreativ industriya digər ənənəvi sənaye sahələri ilə müqayisədə dünyanı bürüyən qlobal iqtisadi böhrana qarşı daha böyük müqavimət, davamlılıq göstərə bilib, belə ki, qlobal iqtisadiyyatı bərpasını stimullaşdıran

yeni iqtisadi tendensiya, meyl kimi qiymətləndirilib. 2002-2008-ci illərdə kreativ industriya mallarının ixracı 2 dəfə artaraq, 600 mlrd. ABŞ dollarına çatmış, 2008-ci ildə böhran nəticəsində beynəlxalq ticarətin 12% aşağı düşdüyü halda, kreativ industriya məhsulların ixracı 2002-2008-ci illərdə 14%-lik illik artımla dinamik inkişaf meylini saxlaya bilib. İnkişafda olan ölkələr kreativ industriya vasitəsi ilə çoxşaxəli iqtisadiyyat yarada bilmişlər. Çində kreativ industriya məhsullarının ixracı 85 mlrd. ABŞ $ çataraq, dünya həcminin 21% təşkil edib, 40 inkişafda olan cənub ölkələrinin mədəni sənayesinin ixracı isə 176 mlrd. ABŞ $ çataraq, dünya yaradıcılıq məhsullarının ticarətinin 43%-ni təşkil edir. Bu ölkələrdə kreativ industriya ən kasıb əhali təbəqələrinə iş yeri açmaqla, peşəkarlığının artırılması və yenilikliyi yaymaqla yanaşı, ticarətin genişlənməsinə imkanlar açıb, o cümlədən Asiya və Afrika ölkələrində modalar sənayesinin, Meksika və Braziliyada tele-seriallar istehsalının, Yamaykada musiqinin, Nigeriyada kino istehsalının. Qısaca desək, müasir dünyada kreativ sənayenin inkişaf etdirilməsi sosial-iqtisadi inkişafı təmin etməkdir və hər bir dövlət bununla bağlı düzgün strategiya seçməlidir. Kreativ iqtisadiyyatın bir xüsusiyyəti ondadır ki, o iqtisadi, ictimai, mədəni, elmi-texniki, ekoloji və digər sahələr ilə bağlı olaraq, sektorlararası koordinasiyanı tələb edir. Üstəlik, kreativ sənaye siyasəti yalnız iqtisadi ehtiyaclarla kifayətlənmir; sosial, təhsil, mədəni identifiklik, sosial bərabərsizlik, ekoloji faktorlar və digər xüsusi tələbləri nəzərə alır. Bir sözlə, kreativ iqtisadiyyat incəsənətin, mədəniyyətin, biznesin, yenilikçilik və innovasiyaların və yeni biznes-modellərin kəsişməsi və inteqrasiyasıdır. Bu iqtisadiyyatın ən vacib amili, əsas sütunu, onu formalaşdıran əqli mülkiyyətdir, müəlliflik hüququdur.

Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi islahatlar kreativ sənayenin ÜDM-dəki iqtisadi payının hesablanma-

sını zəruri etmişdir. Bununla əlaqədar beynəlxalq təcrübə nəzərə alınmaqla xüsusi metodika hazırlanmışdır. Əgər 2004-cü ildə müəlliflik hüququna əsaslanan sənayenin payı 2,4% idisə, 2009-cu ildə 3,6%-ə çatmışdır.

Bununla yanaşı, Solou davamlı iqtisadi artım modeli əsasında müəyyən edilmişdi ki, 2000-2004-cü illərdə innovasiya indeksi, yəni yenilikçilik və biliklər hesabına olan ÜDM-in artımı 7,2%, 2004-2008-ci illərdə isə bu indeks 20,6% qalxaraq 13%-ə yaxın böyük irəliləyiş etmişdir.

Hörmətli dostlar!

Bugünkü tədbirimizin bir xüsusiyyəti də müəlliflik hüququnun mədəni hüquqlar və insan hüquqları ilə təmasda olmağının açıqlanmasıdır.

Bəllidir ki, müəlliflik hüququ «İnsan hüquqları haqqında» Billin ayrılmaz hissəsi olan «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Paktın 15-ci maddəsinə əsasən mədəni hüquqlar çərçivəsinə daxil edilib. Lakin bugünkü dünya mədəni müxtəlifliklə səciyyələnir. Odur ki, qarşıya belə bir məsələ çıxır: ümumi insan haqları mədəniyyətlərin müxtəlifliyi ilə səciyyələnən dünyamızda birgə mövcudluq mümkündürmü? Üstəlik, «mədəni relyativizmə» əsasən insan dəyərləri heç də ümumi xarakter daşımır, mədəniyyətdən mədəniyyətə dəyişə də bilər. Belə çıxır ki, insan haqları ümumi yox, daha çox nisbidir və bu səbəbdən insan haqları ilə bağlı beynəlxalq standartların yerinə yetirilməsi mədəni ənənə tərəfindən məhdudlaşdırılır.

Lakin «mədəni müxtəliflik» heç bir vəcdlə insan haqları ilə ziddiyyətə düşməməlidir, «mədəni relyativizmə» söykənərək, ənənəvi mədəniyyətin «kifayət potensialı» ilə insan haqlarını əvəzləyə bilməz. Çünki «insan haqları» minimal mədəni yox, bütün mədəniyyətlər üçün, onlardan asılılıqda olmayan və heç bir mədəniyyətin xüsusiyyətlərini təsvir etməyən minimal hüquqi standartdır.

Bu hüquqi standart insan ləyaqətini müdafiə edən sənəddir. Odur ki, bu sənədin kifayət qədər olan çevikliyi hər bir mədəniyyətə tətbiq oluna bilər və mədəni müxtəlifliyə hörmət və ehtiramla yanaşma potensiala malikdir. Beləliklə, ümumi insan haqlarının minimal hüquqi standart kimi çevikliyi və mədəni hüquqların inkorporasiyası hər bir mədəniyyət üçün relevantlıq yaradır və beynəlxalq hüququn vacib nailiyyətidir.

Əslində minimal standartlar həm iqtisadi, həm sosial, həm mədəni, həm də vətəndaş və siyasi haqlara aiddir. O da qeyd olunmalıdır ki, «mədəni müxtəlifliyi» dəstəkləyən mədəni hüquqlar məhdudsuz deyil və beynəlxalq normalara görə yalnız digər insan hüquqlarına xələl gətirmədən, onları inkar etmədən həyata keçirilir.

Hörmətli dostlar!

Digər məsələ müəlliflik hüququnun təbiətindən irəli gəlir, onu xüsusi növ mülkiyyət edən müstəsnalıqdan, əsər üzərindəki hökmdarlıqdan yaranır.

«İnsan hüquqları haqqında» Ümumi Bəyannamənin 27-ci maddəsinə əsasən: «Hər bir şəxs müəllifi olduğu elmi, ədəbi və incəsənət əsərlərinin nəticəsi kimi əmələ gələn maddi və mənəvi mənafelərinin qorunması hüququna malikdir». Həmin maddənin 1-ci bəndində isə göstərilir ki, «hər bir şəxsin cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək və ondan bəhrələnmək hüququ vardır». Müəlliflik hüququnu mədəni hüquqlar və insan haqları ilə ziddiyyətə gətirməmək məqsədi ilə müəllif-hüquq qanunvericiliyində də məhdudiyyətlər və istisnalar istifadə olunur. Məsələn, «ədalətli istifadə» - elmi, tədris məqsədləri üçün kitabxanalarda, sitat şəklində – «sərbəst istifadə», «məcburi lisenziya» və s.

«İnsan hüquqları haqqında» Ümumi Bəyannamənin 19-cu maddəsi və «İnsan hüquqlarına dair» Avropa

Konvensiyasının 10-cu maddəsində «öz fikrini sərbəst əks etmək, informasiya almaq və sərbəst yaymaq» hüququ təsbit olunub. Bu hüququ müəlliflik hüququ ilə bir araya gətirmək üçün müəllif-hüquq qanunvericiliyin 7-ci maddəsinə əsasən informasiya xarakterli məlumatlar qorunmur.

Beləliklə, müəlliflik hüququ müstəsna hüquq kimi əsərlərin, fikirlərin ifadə formasını qoruyaraq, eyni zamanda sərbəst şəkildə informasiya xarakterli məlumatların yayılmasına şərait yaradır və «ədalətli istifadə» doktrinası əsasında üçüncü tərəflərə müəlliflik hüququ olan obyektlərdən ideya və faktları sərbəst, hətta müvafiq şərtlərlə qorunan ifadə formasından da istifadə etmək imkanları yaradır.

Hörmətli dostlar!

Əqli mülkiyyət bilik sahəsinin, mədəniyyətin inkişafına xidmət edir. Lakin bədnam qonşularımız tərəfindən bu sahəyə ciddi zərbələr vurulur.

Erməni plagiatından, riyakarlığından, absurdlarından danışanda ilk növbədə onun köklərinə nəzər salmaq lazımdır. Cənubi Qafqazda gəlmə etnos olan ermənilərin «böyük Ermənistan» mifik xülyası və torpaqların əsl sahibi olan xalqın maddi və qeyri-maddi mədəni irsini mənimsəmək və erməniləşdirmək iddiası açıqlanmalıdır. Bəllidir ki, ermənilər tarixdə olmayan «böyük Ermənistan» və «böyük erməni mədəniyyəti» niyyətlərini reallığa çevirmək üçün bir sıra çirkin üsullara əl atırlar. Ermənilərin intellektual və maddi mədəniyyət oğurluqları, tarixi-coğrafi uydurmaları və saxta tarix formalaşdırmaları onlarda ənənəyə çevrilmişdir.

Ermənilər özlərinə mədəniyyət yaratmaq üçün dastan, bayatı, atalar sözləri, nağıl və lətifələrimizi, aşıq yaradıcılığını, musiqi, mahnı və rəqslərimizi mənimsəyir və «özününküləşdirir», xalçalarımızı və onların naxışlarını,

mətbəx reseptlərimizi və xörəklərimizin adlarını özlərinə çıxırlar. Daş-at və Daş-balıq abidələrimizin ermənilərə aid olmasını «sübut» etmək üçün «dənizkənarı» ermənilər, «atlı» ermənilər, tarixdə bəlli olmayan erməni çarları sulaləsi və Gəmiqaya barədə uydurmalar və absurd fikirlər irəli sürürlər. Nizaminin Şirininin erməni, Xosrov Pərvizin sarayındakı musiqiçilərin başçısı Sərkeşin «Sarkis» olması, Möminə-Xatun türbəsinin «ermənilər tərəfindən tikilməsi» və Dədə Qorqudun müəyyən fəsillərinin ermənilər tərəfindən yazılması haqqında absurd «elmi-tarixi fikirlər» də ermənilərin «yaradıcılığıdır». Bu gün, üstəlik Bakı şəhərinin yaranması və tikilməsini də erməniçilik öz adına çıxarır.

Bütün bunlara qarşı geniş cəbhədə mübarizə aparmaq borcumuzdur. cənab Prezident İlham Əliyevin dediyi kimi: «Mən dəfələrlə demişəm və təkrar edirəm ki, biz informasiya hücumuna keçməliyik». Ölkə başçısının bu sözlərinə əməl edərək erməni oğurluqlarına qarşı müdafiə mövqeyindən imtina edib, hücum mövqeyini seçərək ermənilərin əməllərini, oğurluq ənənələri onların öz dili ilə və mənbələri əsasında ifşa edilməlidir.

Agentlikdə hazırlanmış erməni plagiatçılığını ifşa edən «Gəldim, gördüm,… mənimsədim» kitabı Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi ilə birlikdə ingilis və fransız dillərində yenidən nəşr edilmiş, Agentliyin məsləhəti və dəstəyi ilə azərbaycan, ingilis, rus və türk dillərində «Azərbaycan musiqi alətləri» və «Uydurulmuş tarixdə erməni soyqırımı» kitabları bir neçə dildə çapdan çıxarılmışdır. «Armyanskiye inarodnıe skazki» («Erməni yadelli nağılları») kitabı isə rus və ingilis dillərində yenidən çap edilmiş, Azərbaycan və türk dillərində isə çapa hazırlanmışdır.

Ancaq bu gün bir daha qeyd etməliyik ki, Azərbaycan ərazisinin 20%-i işğal altındadır və Ermənistan tərəfindən

buradakı mədəni irsimizin maddi nümunələri talan edilir, üstəlik, qeyri-maddi mədəni irsimiz, mədəni ənənələrimiz, hətta müəlliflik hüququ ilə qorunan əsərlərimiz mənimsə-nilir. Lakin, bu, Azərbaycan mədəniyyətinə vurulan yega-nə zərbə deyil.

Bildiyiniz kimi, mədəni ənənələrdə etnosun həm təbii-bioloji, həm də yaradıcı – mənəvi gücü və qüdrəti təbiət və doğma torpaqla bağlıdır, müvafiq coğrafi arealda inki-şaf edərək qorunub saxlanılır.

«İnsan – yaşadığı iqlim və məkan», «bədii şüur – doğma torpaq», «yaradıcı təfəkkür - təbiət» kimi etnoloji və etnoqrafik üzvü əlaqələr yaradıcılığı və mədəni ənənə-ni yaşatdırır.

1 milyon qaçqın və köçkünü olan azərbaycanlılar öz coğrafi məkanında yaradıcılıq və ənənələrini yaşatmaq-dan da məhrum olub. Azərbaycanın təkrarolunmaz guşə-sində, dünya ictimaiyyəti tərəfindən konservatoriya kimi qəbul edilmiş Qarabağda musiqi mədəni ənənələrimizi yaşatmaq mümkün olmur. Bu isə Azərbaycanın mədəni müxtəlifliyinə vurulan digər zərbədir.

Nəhayət, liberalizmin klassiki Fridrix fon Xayekin de-diyi kimi mədəni ənənələr, instinkt və zəka arasında yer-ləşərək, instinktdən nisbətən cavan, zəkadan isə daha qədimdir. Belə ki, mədəniyyət nə təbii, nə də süni məh-suldur, ortaq bir yaranmadır. Xayekin göstərdiyi və son elmi araşdırmalar əsasında təsdiqini tapmış mədəni ənə-nələrin daxili qüdrəti ilə yanaşı, böyük iqtisadi gücü də vardır. Bunların təbii yaranma və inkişaf yolu müəyyən ərazidə iqlim, flora, faydalı qazıntıların yoluna bənzəyir və tarixi proses bu ənənələri vacib təbii resursa və milli sər-vətin çox dəyərli hissəsinə gətirib çıxarır. Bununla ənənə-lər nəinki mədəni, eləcə də iqtisadi, ərazi inkişafı alətinə çevrilir. Bu da bizə işğalçı siyasət nəticəsində vurulan di-gər zərbədir.

Odur ki, ərazilərimizə göz dikən, «Böyük Ermənistan» xülyası ilə yaşayanlara və ərazi iddialarını «əsaslandırmaq» üçün maddi və qeyri-maddi irsimizə təcavüz edərək, «Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsinə» çevirənlərə qarşı mübarizə aparılıb və aparılacaq. Çünki «mədəniyyətin qəlbi, qəlbin mədəniyyətidir»sə, işğalçı qəlbinə mədəniyyət yaddır.

Dostlar!

Dəyişən dünyada biz kitabı və onu yaradanları qorumalıyıq, rəqəmli kibərməkanla bağlı kitabxanaları və onlara qarşı qoyulan On line informasiyanı, bloqlar və vikisayt aləmini "müəlliflik" anlayışı ilə barış yoluna gətirməliyik. UNESCO-nun Baş direktoru Xanım İrina Bokovanın bu bayram münasibəti ilə müraciətində deyildiyi kimi, kitab "sərvətini hələ də oxumağı bacarmayan 800 milyona yaxın yaşlılara çatdırmalıyıq".

Bir daha hamınızı təbrik edirəm. Odlar yurdu Azərbaycanın odla, alovla bağlı müqəddəs ənənəli torpağında Kitab və Müəlliflik hüququna aid təntənəli gündə çıxışımı bir kəlamla bitirirəm: «[Kitab və müəlliflik] ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə, onlar hamıya məxsus olur».

Diqqətinizə görə təşəkkür edirəm.

# Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları müasir mərhələdə

## I. Müəlliflik hüququ bu gün

1. **ƏM sahəsinin Uzunmüddətli inkişaf Strategiyası və ƏM Dövlət Proqramı (2011-2014):**

- “ƏM-ə qulluq edən iqtisadi şərtlər sosial-mədəni kontekstin dili ilə danışmalıdır”.
- Proqnoz modelinin (ƏM sisteminin gələcək durumunun) qurulması.
- İşləmə vasitələri: sistemli analiz və proqnozlaşdırma nəzəriyyəsi.
- İşləmə üsulları: axtarış proqnozu (sistemin inkişaf meyllərinin və evolyusiyanın təhlili) və məqsədli proqnozun (ekspertlər tərəfindən irəli sürülmüş məqsədlərə nail olmaq yolları və müddətlərin axtarışı) birləşdirilməsi.
- Uzunmüddətli inkişaf Strategiyasının və Dövlət Proqramının əlaqələndirilməsi.

## Dövlət Proqramı ilə Strategiyanın qarşılıqlı əlaqəsi




## ƏM sahəsinin inkişafının əlaqəli retrospektiv, məqsədli tələblər və ierarxik modelləri



## Məqsədli tələblərin formalaşma modeli




## İyerarxik model və məqsədlərin dekompozisiyası prinsipləri

- ✓ "Qara qutu" kimi baxılan sistemin girişi (qarşılıqlı əlaqəli altsistemlərin tələbləri) üzrə dekompozisiya (yuxarı sistem – ictimaiyyət, dövlət; aktual sahə – əlaqəli mühit; aşağı altsistem – hüquq sahibləri, onların birlikləri, istifadəçilər; əlaqələndirici altsistemlər – ƏM institutu);
- ✓ "Qara qutu" kimi baxılan sistemin çıxışları üzrə (son məhsul) dekompozisiya (hüquqların qorunması, hüquqların sərəncamçılığı, hüquqların müdafiəsi);
- ✓ Məhsulun "həyat dövrü" üzrə dekompozisiya (ehtiyacların müəyyənləşdirilməsi (qərarın hazırlanması), məhsulun satılması (qərar qəbul edilməsi), istehlak (qərarın icrası)).

## I səviyyədəki məqsədlərin girişləri üzrə dekompozisiya

II səviyyəli məqsədlər

| I səviyyəli məqsədlərin dekompozisiyası (giriş üzrə ekspert məqsədləri) | ƏM hesabına geniş mənada mədəniyyətin inkişafı üçün əlverişli şəraitin təmin edilməsi | ƏM-in iqtisadiyyatın qüclü inkişaf alətinə çevrilməsi | İnformasiya cəmiyyətinin təşəkkülündə ƏM potensialının istifadəsi |
|---|---|---|---|
| Yuxarı sistem (ictimaiyyət, dövlət) | Mədəni irsin qorunması və inkişafı | Ölkənin ÜDM-də ƏM-ə əsaslanan sənayenin payının artırılması | İnformasiya obyektlərinin və texnologiyalarının ƏM obyektləri kimi qorunması və inkişafı |
| Aktual mühit (ƏM-lə əlaqəli sahə) | Mədəni dəyərlərin yayılmasına dəstək | ƏM ilə bağlı sahələrə investisiyaların, o cümlədən birbaşa, xarici, cəlb edilməsi | ƏM obyektləri kimi informasiya obyektlərinin və texnologiyalarının yayılmasına, istifadəsinə və tətbiqinə təsir |
| Aşağı altsistem (hüquq sahibləri, istifadəçilər) | Mədəni dəyərlərin artırılmasına kömək göstərilməsi | İqtisadi subyektlərdə qeyri-maddi ƏM aktivlərinin payının artması | Yeni informasiya obyektlərinin və texnologiyalarının ƏM obyektləri kimi yaradılması üçün şəraitin stimullaşdırılması |
| Tədqiq olunan sistem (ƏM sahəsi) | Mədəniyyətin inkişafına kömək göstərmək üçün ƏM institutunun konseptual-nəzəri, funksional və idarəetmə bazalarının təkmilləşdirilməsi | ƏM institutunun iqtisadi inkişaf alətinə çevrilməsi üçün onun konseptual-nəzəri, funksional və idarəetmə bazalarının təkmilləşdirilməsi | ƏM institutunun informasiya cəmiyyətinin formalaşmasında istifadəsi üçün onun konseptual-nəzəri, funksional və idarəetmə bazalarının təkmilləşdirilməsi |

Çıxışlar mövqeyindən (son məhsullar) koordinasiya-edici istisna olmaqla (3 altsistem) (27 məqsəd), II səviyyəli məqsədlərin dekompozisiyası və onların məqsədlər ağacından funksiyalar ağacına çevrilməsi: **27 funksiya**.

Məhsulların "həyat dövrü" mövqeyindən II səviyyəli məqsədin koordinasiyaedici (3 məqsəd) dekompozisiyası (əlaqələndirici sistem) və onların məqsədlər ağacından funksiyalar ağacına çevrilməsi: **3 funksiya**.




## Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin inkişafı üzrə 2011-2014-cü illər üçün Dövlət Proqramı (ƏM Dövlət Proqramı)

1. Uzunmüddətli inkişaf Strategiyasından və müvafiq 30 məqsəddən irəli gələn ƏM sahəsinin inkişafı üzrə 12 funksional məqsədlər istiqamətinə asaslanır.
2. 30 məqsəd ümumi funksiyalar şəklində göstərilmişdir.
3. Ümumiləşdirilmiş funksiyalar tədbirlər şəklində müəyyən edilmişdir, onların Planı 90 adda təqdim edilmişdir, o cümlədən

1- ci funksional istiqamət – 10 tədbir
2- ci funksional istiqamət – 6 tədbir
3- cü funksional istiqamət – 7 tədbir
4- cü funksional istiqamət – 5 tədbir

5- ci funksional istiqamət – 7 tədbir
6- cı funksional istiqamət – 6 tədbir
7- ci funksional istiqamət – 6 tədbir
8- ci funksional istiqamət – 5 tədbir
9- cu funksional istiqamət – 6 tədbir
10- cu funksional istiqamət – 7 tədbir
11- ci funksional istiqamət – 11 tədbir
12- ci funksional istiqamət – 10 tədbir
**Cəmi 90 tədbir**

4. Tədbirlər icraçılar və icra müddətlərinə görə bölünmüşdür.
5. Dövlət Proqramının həyata keçirilməsi üzrə gözlənilən nəticələr və onun resursla təminatı təqdim edilmişdir.

**2. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanununa əlavə və dəyişikliklər (20 noyabr 2010-cu il):**

**İnternet hüquqların "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanununda təsbit olunması.**

- "interaktiv kütləvi bildiriş" (əsərlərin və əlaqəli hüquqların obyektlərinin interaktiv istifadə üçün kütləyə çatdırılması) - əhali nümayəndələrinin öz şəxsi seçiminə görə istənilən yerdə və istənilən vaxtda əsərlərin və əlaqəli hüquqların obyektlərinin əldə etməsini mümkün edən çatdırma;
- "interaktiv kütləvi bildiriş hüququ" (maddə 15) müəlliflər və müstəsna hüquq sahibləri;
- "fonoqrama yazılmış ifanın interaktiv kütləvi bildirişi" (maddə 33) ifaçılar;
- "fonoqramın interaktiv kütləvi bildirişi" (maddə 34) fonoqram istehsalçıları;

**Qorunan elmi obyektlərin həcminin genişlənməsi.** “Müəllif hüququ ilə qorunma öz-özlüyündə ideyalara, proseslərə, işləmə metodlarına və ya riyazi konsepsiyalara deyil, ifadə formasına şamil olunur” (maddə 5).

## 3. Rəqəmli qeydiyyat və verilənlər bazası




İllər üzrə qeydiyyatın həcmi

**Cəmi: 7087**



## 4. “Folklor” multimedia rəqəmli kitabxanası




## 5. ÜDM-də kreativ industriyanın payı







**2009-cu ildə Azərbaycanın ÜDM-nin həcmi:**
34,6 mlrd.man. (43,25 mlrd.$)

## Solou modelində innovativlik (kreativlik) indeksi

$Y = A \cdot K^{\alpha} \cdot L^{\beta} \rightarrow \Delta Y/Y = \Delta A/A + \alpha \Delta K/K + \beta \Delta L/L$

(kapital, əmək, biliklər)

A – innovasiya hesabına artım,

K – kapital, L – əmək, $\alpha = \beta = 0{,}5$.




Davamlı iqtisadi inkişafın 7 ili ərzində innovasiyalar hesabına ölkənin ÜDM-nin artımı 13% artmış, ÜDM-in həcmi 7 dəfə böyümüşdür.

## 6. Piratçılığın səviyyəsinin müqayisəli göstəriciləri



## 7. Rəqəmli hüquqların problemləri




**Onlayn rejimində xidmətlərin genişlənməsi:**

- yayımda kontentin qeyri-xəttiliyinin artması (time-shifting);
- mərkəzi serverin vasitəçiliyi olmadan pirinq şəbəkələrdə (P2P) fayl mübadilələrinin artması;
- onlayn musiqi mağazalarının ministudiya rejiminə keçməsi;
- mobil kontent şəbəkəsində satışın artması (rinq-tonlar, realtonlar, rinq-bektonlar).

**Kollektiv idarəetmənin yenidənqurulması:**

- one-stop-shops ərizələrin onlayn lisenziyalaşdırılması ilə;
- rəqəmsal idarəetmə - blanket lisenziyalar, tariflərə dövlət nəzarəti (Copyrigth Royalty Board), rəqəmsal hüquqlar üzrə xüsusi dövlət orqanlarının yaradılması (Böyük Britaniya – Digital Rights Agency, İsveçrə - kibernəkanda əsərlərin lisenziyalaşdırma mərkəzi).

**Rəqəmsal şəbəkədə onlayn xidmətlər**



## 8. “Əqli mülkiyyət hüquqlarının təminaı və piratçılıqla mübarizə haqqında” Qanun layihəsi

Maddə 11.3. Rəqəmli şəbəkələrdə hüquqların (rəqəmli hüquqların) həyata keçirilməsi, o cümlədən onların kollektiv əsasda idarə edilməsi mövcud qanunvericiliyə uyğun olaraq tənzimlənir.

Müəlliflik hüququ sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanı rəqəmli hüquqlardan istifadəyə nəzarət edir, bu hüquqların kollektiv əsasda idarəçiliyini təşkil edir, hüquqların pozulduğu, o cümlədən hüquqlardan istifadəyə qoyulmuş məhdudiyyətləri təmin edən texniki müdafiə vasitələrinin qeyri-qanuni dağıdıldığı, eləcə də hüquq sahibinin razılığı olmadan hüquqların idarə edilməsi haqqında informasiyanın ləğv edildiyi, yaxud dəyişdirildiyi hallarda öz səlahiyyətləri çərçivəsində tədbirlər görür.

### Üç mərhələləli test

**1 MƏRHƏLƏ**

Məhdudiyyətlər müəllif-hüquq qanunvericiliyindən irəli gəlir (m.17-24, 33-35)

**2 MƏRHƏLƏ**

Adi istifadəyə əsassız xələl gətirmir (m.15. p.5, m.36. p.1)

**3 MƏRHƏLƏ**

Hüquq sahiblərinin qanuni maraqlarını əsassız məhdudlaşdırmır (m.15. p.5, m.36. p.1)

### Rəqəmli hüquqların kollektiv idarəedilməsi: məcburi lisenziya

## Enforcement ƏM Mərkəzinin biznes-modeli

| | |
|---|---|
| Yaranma məqsədi | Enforcement ƏM sahəsində hüquqi maariflənmə və təhsil, həmçinin müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanmış xüsusi antipirat markalı – holoqramlı malların təminatı |
| Əsas funksiyalar | 1. Təhsil mərkəzinin, ekspozisiyaların və kitabxanaların fəaliyyətinin təminatı.<br>2. Parakəndə satışda yayılan çap məhsullarına, fonoqramlara, audiovizual əsərlərə, verilənlər bazasına, softverə rəqəmli kodların verilməsi və qeydiyyatın aparılması.<br>3. Mallara müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanmış xüsusi marka – holoqramların verilməsi.<br>4. Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanaraq yayılmasına icazə verilən malların, hüquq sahibləri kollektivləri və yayım təşkilatları arasındakı lisenziyaların və verilmiş şəhadətnamələrin dövlət reyestrlərinin aparılması.<br>5. Ticarət şəbəkəsində, efirlə və kabellə yayılmağa icazəli obyektlərin “hüquqlarının təmizlənməsi” məqsədilə ekspertizası. |
| Resurslar | Dövlət himayəsi və şəxsi gəlirlər. |
| Təşkilat forması | Hüquqi şəxs. |

## On-line monitorinq Xidmətinin və enforcement Mərkəzinin lisenziyalaşdırılmasının biznes-modeli





| | |
|---|---|
| Yaranma səbəbi | On-line lisenziyalı “one-stop-shops”prinsipinə əsasən rəqəmsal şəbəkədə hüquqların kollektiv idarə edilməsi. |
| Əsas funksiyalar | 1. Unikal identifikator-kodların verilməsi ilə rəqəmsal kontentin məcburi qeydiyyatı.<br>2. Saxlanılan kontent, onun istifadəsi və obyektlərin rəqəmsal qorunması şərtləri haqqında xüsusi saytın formalaşması və aparılması.<br>3. İstifadəçinin sorğusunun avtomatik identifikasiyalaşdırılması, lisenziyanın verilməsi və fərdi və kollektiv istifadəçilərə elektron ödənişin təminatı.<br>4. İstifadə faktlarının tətbiqinin internet-resurslarının və kontent axtarışının indeksləşməsinin xüsusi avtomatlaşdırma mexanizmi vasitəsilə təminatı.<br>5. “Hüquqların idarə edilməsi haqqında informasiya” və “qorunmanın texniki vasitələri” standartlarının və qorunan obyektlərə rəqəmsal kodların dəstək verilməsi. |

# II. Qeyri-maddi mədəni irs, onun qorunub saxlanması və hüquqi qorunması

## 1. Mədəni ənənələr: humanitar-kulturoloji, təbii-elmi əhəmiyyəti və ərazi inkişafındakı rolu

| Mədəni ənənələr | |
|---|---|
| Ənənəvi mədəni nümunələr (folklor) **(ƏMN)** | Ənənəvi biliklər **(ƏB)** |

## 2. Ənənəvi mədəni nümunələr və ənənəvi biliklər nə deməkdir və onların təsnifatı.

***Folklor nümunəsi* –** xalqın, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, xalqın ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olan və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri ("Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanunu);

***Ənənəvi biliklər* –** ənənəyə əsaslanan əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan və nəsildən-nəslə ötürülərək qorunub saxlanılan sənaye, elm, ədəbiyyat və incəsənət sahəsindəki yeniliklər və yaradıcılıq nəticələri ("Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanunu).

**Azərbaycan qanunvericiliyi və UNESCO-nun**
“Folklorun qorunub-saxlanılmasına aid” Tövsiyyələrində




- **Söz nümunələri:** xalq, aşıq poeziyası, dastanlar, rəvayətlər, bayatılar, nağıllar, lətifələr, atalar sözləri və s.
- **Musiqi nümunələri:** muğamat, xalq mahnıları, instrumental musiqi və s.
- **Hərəkət nümunələri:** xalq rəqsləri, yallılar, oyunlar və s.
- **Xalq sənətkarlığı və tətbiqi sənət:** sənət-şəkillər, rəsmlər, qədim xalçalar, döymə və oyma işləri, heykəltaraşlıq, mis işləri, naxışlar, musiqi alətləri, memarlıq işləri və s.




**Ənənələr və genetik resurslar**
**(canlı təbiət və insan resursları)**

3. Qorunub-saxlanma nə deməkdir? (UNESCO, “Qeyri-maddi mədəni irsin qorunub saxlanması” Konvensiyası, 2003-cü il)




Kollektiv kreativliyin qorunması

4. Hüquqi qorunma nə deməkdir?




5. Beynəlxalq miqyasda ənənəvi-mədəni nünunələr (folklor) və ənənəvi biliklər nə cür qorunur?
6. Ənənəvi biliklərin hüquqi qorunması

Ənənəvi bilikləri nə cür qorumaq mümkündür?




“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanuna əlavə və dəyişikliklər. (27-ci maddə “İctimai varidat”).

**Xüsusi Hökumət Qərarı. Xalçaların qorunması.**

| "Əl işi" olan xalçaların qorunması | → | "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun: Əlavə "Müəlliflik hüququnun obyekti olan əsərlər" sırasına (maddə 6) "...dekorativ tətbiqi, **o cümlədən əl işi olan xalçalar**" və səhnə tərtibatı sənəti əsərləri. |
|---|---|---|

## 7. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanuna əlavələr və dəyişikliklər

| № | Maddə | Təklif edilmiş | Mövcud redaksiya | Yeni redaksiya |
|---|---|---|---|---|
| 1 | 4 maddə "Əsas anlayışlar" | Əlavə | ______ | Ənənəvi biliklər - ənənəyə əsaslanan əqli fəaliyyətin nəticəsi olan və nəsildən-nəslə ötürülərək qorunub saxlanılan elmi, ədəbi, bədii və sənaye sahələrində yeniliklər və yaradıcılıq nəticələri |
| 2 | 27-ci maddə "İctimai varidat" | Dəyişiklik və əlavə | Azərbaycan Respublikası ərazisində heç vaxt qorunmamış əsər də **ictimai varidata keçmiş sayılır** | Azərbaycan Respublikası ərazisində heç vaxt qorunmamış əsər **ictimai varidat sayılır. Azərbaycan folkloru nümunələri (ənənəvi mədəni nümunələr) və Azərbaycanın ənənəvi bilikləri ictimai varidata daxildir. Azərbaycan folkloru nümunələri "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qorunur.** |

## 8. "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər

| № | Maddə | Təklif olunur | Yeni redaksiya |
|---|---|---|---|
| 1 | 6 maddə “Folklor nümunələrindən istifadəyə tələblər” | Əlavə | “6.2. Azərbaycan folkloru nümunələrindən Azərbaycan Respublikasının hüdudlarından kənarda başqa dövlətlərin hüquqi və fiziki şəxsləri tərəfindən kommersiya məqsədilə istifadəyə görə müvafiq icra hakimiyyəti orqanından icazə alınmalı və istifadəyə görə qanunvericiliklə müəyyən edilmiş qaydada haqq ödənilməlidir. Həmin vəsait müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür və əqli yaradıcılığın həvəsləndirilməsinə, habelə folklor nümunələrinin qorunub saxlanmasına və zənginləşdirilməsinə sərf olunur”. |

## 9. Nəticələr

**Ənənəvi mədəni nümunələrin (ƏMN) və ənənəvi biliklərin (ƏB) əqli mülkiyyətin xüsusi növünə çevrilməsinin məqsədi:**

- xalqa məxsus mülkiyyət kimi elan olunması;
- əqli mülkiyyətə məxsus olan hüquqi qorunma rejiminin tətbiq edilməsi;
- qeyri-qanuni istifadəyə və xüsusən mənimsənilməyə qarşı çıxması;
- pozuntulara müəyyən edilmiş cəza sanksiyaların həyata keçirilməsi.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.